Namazı ayaq üstə qıl, bacarmırsansa oturaraq qıl, ona da gücün çatmırsa, uzanaraq qıl

İmran bin Hüseyndən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: “Mənim babasilim var idi, ona görə də Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) namaz haqqında soruşdum və o dedi: "Namazı ayaq üstə qıl, bacarmırsansa oturaraq qıl, ona da gücün çatmırsa, uzanaraq qıl".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) izah edir ki, namazda qayda odur ki, ayaq üstə qılınır, buna aciz olarsa oturaraq qılır, oturub qılmağa gücü yetməzsə bu zaman yan tərəfinin üzərinə uzanaraq namaz qıla bilər.

http://sunnah.global/hadeeth/az/show/10951